**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕНЫЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**Айтекин Али гызы Зейналова**

# Печать как фактор усовершенствования межгосударственных отношений (на основе материалов современной азербайджанской печати)

**Специальность: 5720.01 – Журналистика**
**5901.01 – Международные отношения**

## АВТОРЕФЕРАТ

Диссертации на соискание ученой степени
доктора философии по политическим наукам

**БАКУ-2015**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**AYTƏKİN ƏLİ QIZI ZEYNALOVA**

# MƏTBUAT DÖVLƏTLƏRARASI MÜNASIBƏTLƏRIN TƏKMILLƏŞDIRILMƏSI FAKTORU KIMI (MÜASIR AZƏRBAYCAN MƏTBUATININ MATERIALLARI ƏSASINDA)

**İXTİSAS: 5720.01 – Jurnalistika**
**5901.01 – Beynəlxalq münasibətlər**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI-2015**

Dissertasiya işi Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin “Beynəlxalq jurnalistika” kafedrasında yerinə yetirilmiş, müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir.

**Elmi rəhbərlər:** **tarix üzrə elmlər doktoru,**
**professor Ə.M.HƏSƏNOV**

**filologiya üzrə elmlər doktoru,**
**professor N.A.ƏHMƏDLI**

**Rəsmi opponentlər:** **siyasi elmlər üzrə elmlər doktoru**
**H.B.MƏMMƏDOV**
**filologiya üzrə fəlsəfə doktoru**
**R.R.MƏMMƏDOV**

**Aparıcı təşkilat:** **Bakı Slavyan Universiteti**

Dissertasiya işinin müdafiəsi “30_” “__10_” 2015- ci il tarixdə saat “____” Bakı Dövlət Universitetinin nəzdində təşkil edilmiş FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z. Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat “__” “_______” 2015-ci il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi**
**katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q.MƏMMƏDOV**

# İŞİN ÜMUMİ XARAKTERISTIKASI

**Tədqiqatın aktuallığı.** Müasir cəmiyyətin ictimai-siyasi və ideoloji inkişafı prosesində demokratik təsisatlarla yanaşı, mətbuatın da aparıcı instituta çevrilməsi qloballaşan müasir dünyanın real mənzərəsini canlandırmağa imkan verir. Cəmiyyəti təşkil edən fərdlərin könüllü şəkildə bir araya gəlib onları əhatə edən problemlərin, çeşidli məsələlərin həllində məhz media mühitdə sıx əməkdaşlıq etməsinin zəngin tarixi var və bu əməkdaşlıq sosial-siyasi təfəkkür tarixində dərin izlər qoymuşdur. Demokratik institutlaşma, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu dövlətçiliyin müstəqillik və suverenlik rəmzidir. Bu baxımdan da vətəndaş cəmiyyəti quruculuğunun əsas institutlarından biri kimi mətbuatın dövlətlərarası münasibətlərdəki yerinin araşdırılması ciddi aktuallıq kəsb edir.

XX yüzilliyin sonlarında dünyanın inkişafına ciddi təsir göstərən qlobal ictimai-siyasi dəyişikliklər, dünya sosializm sisteminin çökməsindən sonra beynəlxalq münasibətlər orbitinə onlarca yeni, suveren dövlətin çıxması, elmi-texniki tərəqqinin yüksəlişi fonunda kütləvi informasiya vasitələrinin imkanlarının genişlənməsi, informasiya rəqabətinin geosiyasi mübarizə ilə çulğaşması müstəqillik yoluna qədəm qoymuş suveren dövlətlərin sırasında olan Azərbaycan diplomatiyasının da fəaliyyət diapozonu və konturlarını obyektiv şəkildə əks etdirir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev respublikamızın xarici siyasət sahəsindəki taleyüklü məsələlərindən bəhs edərək göstərirdi ki, «dəyişən dünyamızda Azərbaycanın siyasi missiyası dost və tərəfdaş axtarışına, blok və ittifaqların çoxvariantlılığına yönəlmişdir. Bu, Azərbaycanın dünya dövlətləri ailəsində statusunu, suverenliyini möhkəmləndirəcək, həm də onun müxtəlif dövlətlərlə yaxınlaşmasına kömək edəcəkdir»[1]. Bu strateji kurs milli diplomatiyanın, politoloji fikrin, kütləvi informasiya vasitələrinin, informasiya cəmiyyətinin qarşısına həlli və nizamlanması xeyli mürəkkəb olan çoxsaylı vəzifələr qoyur ki, tədqiq edilən problemin aktuallığı həm də bununla bağlıdır.

---

[1] Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. B., Azərbaycan, 1994, s.31

Dünya birliyinin sıralarında layiqli yer almış, davamlı inkişaf strategiyasını uğurla həyata keçirməkdə olan Azərbaycan Respublikasının müasir ictimai-siyasi həyatı Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və ölkə Prezidenti Cənab İlham Əliyevin uğurla davam etdirdiyi demokratik təsisatların, ictimai institutların formalaşması ilə səciyyələnir ki, bu prosesdə KİV, o cümlədən milli mətbuat mühüm rol oynayır.

Azərbaycan Respublikasının müstəqil inkişaf yolunu seçməsi, müasir dünyada onun tutduğu yer və qazandığı imic, Qərb demokratiyası dəyərləri ilə səciyyələnən inkişaf strategiyasını həyata keçirməsi, ölkəmizdə demokratik islahatların və hüquqi dövlət quruculuğunun gələcəyi, Azərbaycana münasibətdə dünya ictimai fikrinin yaranmaqda olan obyektiv rəyi müstəqil milli mətbuatın formalaşması ilə paralel getmiş, məhz bu prosesdə qazanılmış uğurlarda müstəqil, bitərəf, iqtidar və müxalifət yönlü milli mətbuatın rolu böyük olmuşdur. Respublika Prezidenti Cənab İlham Əliyev milli mətbuatın ölkəmizdəki dövlət quruculuğu prosesində iştirakından danışarkən demişdir: "Milli hərəkatın yaranmasında Azərbaycan mətbuatı, azad mətbuatın rolu çox yüksək olub və biz bunu həmişə yadda saxlamalıyıq"[2].

Təsadüfi deyil ki, müstəqillik uğrunda mübarizənin gedişində mətbuat milli şüurun formalaşmasında mühüm rol oynamışdır və bu prosesin spesifik xüsusiyyətlərinin öyrənilməsi, qanunauyğunluqlarının müəyyənləşdirilməsi, uğurların və səhvlərin ümumiləşdirilməsi milli dövlətçiliyimiz durdüqca öz əhəmiyyətini qoruyacaqdır.

Milli mətbuatın formalaşması prosesinə təsir göstərən digər amil Azərbaycanın ətrafında gedən geosiyasi mübarizənin mahiyyətinin tədricən dərk olunması ilə bağlı idi. Belə ki, milli mətbuat Dağlıq Qarabağ problemi ilə Azərbaycanın Xəzər nefti arasında əlaqənin əhəmiyyətini tədricən müəyyənləşdirir və bunu ictimai fikrə təlqin edirdi.

Müstəqillik uğrunda mübarizənin gedişində ölkəmizin qarşılaşdığı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin qısa müddətə dünyanın fövqəldövlətlərinin diqqət mərkəzinə çevrilməsi onun Cənubi Qafqaz uğrunda gedən geosiyasi mübarizə və Xəzərin karbohidrogen

---

[2] Hüquqi demokratik cəmiyyət quran Azərbaycanda mətbuatın inkişafına bundan sonra da diqqət və qayğı göstəriləcək. Azərbaycan mətbuatının 130 illiyinə həsr olunmuş yubiley mərasimində prezident İlham Əliyevin nitqi // Azərbaycan qəzeti, 2005, 22 iyul

ehtiyatları ilə bağlı olduğunu aydın şəkildə göstərirdi. Milli kütləvi informasiya vasitələrində bu iki amilin təsiri ilə ümummilli maraqların formalaşdırılması işi bu amillərin mövcudluğu və təsiri ucbatından kifayət qədər mürəkkəb məsələyə çevrilmişdi. Münaqişəyə münasibətdə Azərbaycanın tərəfdarlarının və əleyhdarlarının müəyyənləşməsi və ayrılması milli mətbuatın gələcək əhatə konturlarının müəyyənləşdirilməsi baxımından əhəmiyyətli olub problemlə bağlı tədqiqat işlərinin aparılmasını aktuallaşdırır.

Dövlət müstəqilliyi qazanmış, yaxın və uzaq qonşularla qarşılıqlı faydalı əməkdaşlığı genişləndirən və vətəndaş cəmiyyəti quruculuğu prosesində olan Azərbaycanda bu cəmiyyətin atributu hesab edilən mətbuatın yeri və rolunun öyrənilməsi, milli təcrübənin beynəlxalq təcrübə müstəvisində araşdırılması günümüzün vacib və aktual problemlərindəndir. Nəzərə çatdıraq ki, son dövrlərdə bu mövzu Qərbdə və Rusiyada da politoloji fikrin xüsusi diqqət yetirdiyi aktual məsələlərdən biri olmuşdur. Totalitar və qapalı xarakter daşımış SSRİ-nin süqutu və Azərbaycanın dövlət müstəqilliyi qazanması vətəndaş cəmiyyətinin də təşəkküllünə rəvac verdi.

Azərbaycan mətbuatı dünya mətbuatının bir hissəsi kimi bu günün reallığı üçün ölkədaxili, dövlətlərarası və beynəlxalq əlaqələrin intensivliyinin və səmərəsinin yüksəldilməsinə xidmət edən vacib vasitələrdən biridir və beynəlxalq sülhün, təhlükəsizliyin qorunmasında, qlobal səviyyədə əməkdaşlığın stimullaşdırılmasında əvəzsiz rol oynayır. Müstəqil Azərbaycanda milli mətbuatın fəaliyyəti nəticəsində müəyyən bir təcrübə toplanılmış və onların siması ölkənin milli maraqları, milli adət-ənənələri, milli özünəməxsusluğu çərçivəsində formalaşmışdır. Eyni zamanda dövlətlərarası münasibətlərdə geniş və aktiv iş görən beynəlxalq qeyri-hökumət təşkilatlarının da təcrübəsi milli mətbuatın maraq dairəsindədir. Müasir Azərbaycan mətbuatı dövlətlərarası münasibətlərin təbiəti, formalaşması, fəaliyyəti, strukturu və tərkibi, bu problemlərin siyasi tədqiqi və institutlaşmasının, ölkənin ictimai-siyasi həyatında rolunun və yerinin müəyyənləşdirilməsi, dövlət siyasətinin öyrənilməsi, bu yöndə vətəndaşların ictimai-siyasi fəallıqlarını artıra biləcək məsələlərin siyasi aspektdə araşdırılması da mövzunun müasir dövr üçün aktuallığını şərtləndirir.

**Mövzunun işlənmə dərəcəsi.** Dünya mətbuatı son iki yüz ildə bir institut olaraq dövlət və dövlətçilik, siyasi hakimiyyət fenomeni, siyasi təşkilatlar, başqa sözlə desək, «birinci sektor»u daha çox öyrənmiş və tədqiq etmişdir. Siyasi elmlər sahəsində ölkəmizdə də xeyli elmi-tədqiqat işi ərsəyə

gətirilmişdir[3]. Bu halı təqdirəlayiq hesab etməklə bərabər, qeyd etməyi vacib bilirik ki, cəmiyyətlərarası ictimai-siyasi proseslərin öyrənilməsində mətbuatın rolunun araşdırılması prosesi bir sıra digər elmi tədqiqatlarda da fraqmentar şəkildə olsa da, özünü göstərməkdədir.

Müasir siyasi elmlərdə mətbuatla bağlı məsələlərə yeni nəzəri yanaşmalar arasında olan oxşar və fərqli cəhətlərin öyrənilməsi, təhlil olunması da müəyyən aktuallıq kəsb edir. Bu baxımdan mətbuatın ictimai-siyasi sistemdə oynadığı rolun araşdırılması, cəmiyyətin inkişafına bunun verdiyi töhfələrin tədqiqi başlıca məqsədlərdən biridir. Göstərilən amillər problemin öz aktuallığını zaman-zaman saxlayacağını və kompleks tədqiqat işinin aparılmasına ciddi ehtiyacın olmasını şərtləndirmişdir.

Artıq tarixə çevrilmiş XX əsr boyu mətbuatın cəmiyyətlərin ictimai-siyasi həyatında, inkişafında, habelə dövlətlərarası münasibətlərdə yeri və rolu probleminin öyrənilməsi dünya elminin diqqət mərkəzində olmuşdur. Bu universal problemin siyasi-ictimai elmlər sahəsindəki qoyuluşu isə ötən əsrin sonlarından politoloqların, sosioloqların, cəmiyyətşünasların, filosofların və s. əsərlərində araşdırma obyektinə çevrilmiş, problemin tarixi, fəlsəfi və sosial-psixoloji mahiyyəti ilə bağlı tədqiqatlar aparılmış, ictimai birliklər və fondlar, eləcə də digər ictimai xarakterli təsisatlara xas olan spesifik cəhətləri müəyyənləşdirilmiş və inkişaf perspektivlərinə dair tövsiyə və proqnozlar səsləndirilmişdi[4].

Tədqiqat prosesində elmi dövriyyəyə gətirilmiş sənəd və materialları, habelə müxtəlif informasiya mənbələrini şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- müxtəlif yerli və xarici kütəvi informasiya vasitələri, qəzet və jurnallar, habelə bunlara istinadən yazılmış əsərlər;

---

[3] Siyasi tarix, II hissə. B., Azərbaycan Ensiklopediyası NPB, 1998, 420 s; Öməroğlu (Vəliyev) İ. Dünya susur, tarix susmur. B., Gənclik, 1994, 432 s.; Hüquqi demokratik dövlət quran Azərbaycanda mətbuatın inkişafina bundan sonra da diqqət və qayğı göstəriləcəkdir//Dirçəliş-XXI əsr, 2007-2008, № 118-119, s.; Hüseynov Ş. Müstəqilliyin çətin yolu. Biz hara gedirik? B., 1995; Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Мехтиев Р. Десять лет, изменивщие Азербайджан: 2003-2013. М., Изд-во ГРИФ и К, 2013 (248 стр.). B., Hərbi nəşriyyat, 1998, 280 s.; Jurnalist məsuliyyəti. Dünya mətbuat şuralarının təcrübəsi.B., Bakı Mətbuat Klubunun nəşri, 2002; Jurnalistlərin mükafatı // Azərbaycan qəzeti, 2002, 23 mart; Jurnalistlərin hüquq-məlumat kitabı. B., 2000

[4] Melvin İ.Urofsky. ABŞ demokratiyası haqqında əsas mətnlər. B., İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi, 2005, 487 s.

- müasir informasiya cəmiyyətində jurnalistikanın elmi-nəzəri məsələlərinin Azərbaycan mətbuatında inikası prosesini əks etdirən tədqiqat işləri;

- problemin beynəlxalq hüquqi təbiətini əks etdirən sənəd və materiallar;

- milli və xarici mətbuat materiallarına əsasən BMT-nin, Avropa İttifaqının, ATƏT-in, Avropa Şurasının, İKT-nin (hazırda İslam Əməkdaşlıq Təşkilatı – müəl.) və s. beynəlxalq qurumların problemə münasibətini əks etdirən qaynaqlar.

Tədqiqat prosesində müasir qərb və rus müəlliflərinin əsərlərindən istifadə olunmuş, bunlara obyektiv münasibət bildirilməklə həmin müəlliflərə istinadlar edilmiş, müqayisələr aparılmış, elmi-tənqidi fikirlər səsləndirilmişdir. Vətəndaş cəmiyyətində mətbuat, onun dövlətlərarası və xalqlararası münasibətlərdə, cəmiyyətdə rolu, yeri və əhəmiyyəti, fəallığın artırılmasında demokratik təsisatların rolu kimi məsələlər Z.Bjezinskinin, İ.N.Panarinin, Y.N.Zasurskinin, D.Melyxinin, T.A. Şakleinanın, S.A.Mixaylovun, B.Şivinskinin, İ.Melvinin və s. müəlliflərin əsərlərində geniş təhlil olunmuş, lakin problemə bitərəf tədqiqatçı-müəllif münasibəti saxlanmışdır[5].

Azərbaycan mətbuatının və KİV-in digər növlərinin materialları əsasında dövlətlərarası münasibətlərin təkmilləşdirilməsi prosesində mətbuatın rolunun, yerinin və əhəmiyyətinin müəyyənləşdirilməsi problem kimi öz mövcudluğunu zaman – zaman saxlayacaqdır. Təsadüfi deyildir ki, dünyanın müxtəlif informasiya vasitələri bu yolda daim yaradıcılıq axtarışındadır, çünki qloballaşmaqda olan dünyamızda informasiya vasitələri baş verməkdə olan ictimai-siyasi proseslərin istiqamətlərinin müəyyənləşməsində kütləvi şəkildə iştirak edir və dördüncü hakimiyyət kimi öz sözünü deməyi bacarır. Qərb müəlliflərindən H.Kross mətbuatın bu roluna toxunaraq yazırdı ki, "geniş xalq kütlələrinin hakimiyyətin nə ilə məşğul ol-

---

[5] Бжезинский З. Великая шахматная доска. Господства Америки и его геостратегические императивы. М., Международные отношения, 1999, 256 с.; Засурский Я.Н. Журналистика в переходный период / Вестник МГУ, серия журналистика, 1997, № 5; Панарин И.Н. Информационная война и геополитика. М., изд. Поколение, 2006, 560 с.; Мелюхин И.С. Информационная общество. М., 1999, 346 с.; Михайлов С.А. Журналистика Соединенных Штатов Америки / СПб.: Изд-во Михайлова В.А., 2004, 416 с.; Шаклеина Т.А. Россия и США в новом мировом порядке. Дискуссии в политико-академических сообществах России и США (1991-2002). М., Институт США и Канады РАН, 2002, 395 с.

duğunu bilməyə haqqı var və mətbuat cəmiyyətin tamhüquqlu nümayəndəsi kimi bu barədə informasiya toplamağa və dərc etməyə borcludur"[6].

Mətbuatın dövlətlərarası münasibətlərdə rolundan bəhs edən Qərb müəllifləri xəbər, müsahibə, söhbət, reportal və hesabat kimi informasiya janrlarından istifadə etməklə belə münasibətlərin genezisi, təkmilləşdirilməsi və perspektivləri kimi məsələlərə aydınlıq gətirirlər. Belə müəlliflərdən Villem F. Kortals[7], E.Dennis və C.Merrill[8], R.Müllerson[9], A.Q.Rixter[10], Monro Prays[11], R.Vanderet[12], E.Denza[13], F.Sibert və başqaları[14], L.T.Lee[15], C.Plano[16], M.L.Stein[17] və başqaları müasir dövrdə informasiyanın insanların və cəmiyyətlərin həyatına, beynəlxalq münasibətlər sisteminin formalaşmasına, dövlətlər və xalqlar arasında əlaqələrin inkişafına, dünya siyasətinə təsirinə dair çoxşaxəli problemləri araşdırmı.lar ki, dissertasiyanın yazılması prosesində bunların nəticələrindən lazım gəldikcə istifadə olunmuşdur.

Mətbuatın siyasi-ictimai sistemdə yeri və dövlətlərarası münasibətlərin təkmilləşdirilməsində rolu məsələsi Azərbaycan siyasi elmində ayrı-ayrı müəlliflərin əsərlərində məqalə və ya oçerk səviyyəsində öyrənilsə də, xüsusi elmi-tədqiqat mövzusu kimi bilavasitə tədqiq olunmamışdır. Bu baxımdan təqdim olunan dissertasiya işi bu sahədə atılmış ilk addımlardan biri kimi ümumiləşdirilmələrin aparılması və konkret məsələlərin qoyuluşu ilə seçilir. Tədqiqatda araşdırılan mövzu ətrafında Azərbaycan müəlliflərinin əsərlərinə də istinadlar verilmiş, bunlardan

---

6 Rüstəmov A. Jurnalistika. 2-ci cild. B., Uni Print, 2013, s. 77

7 Виллем Ф. Корталс Алтес - Проект закона «Об обеспечении доступа к информации», 11 апреля 2003 г.

8 Дэннис Э., Мэррилл Дж. Беседы о масс-медиа //Пер. с англ. М., 1997, 365 с.

9 Мюллерсон Р.А. Права человека: идеи, нормы, реальность. М., Право, 1991, 285 с.

10 Современное право средств массовой информации в США/ Под ред. А.Г.Рихтера. М.: Право и СМИ, 1997, 386 с.

11 Статья Монро Прайс - «Право СМИ в США: эволюция или революция?»

12 Статья Роберта Вандерета - «Американское диффамационное право и судопроизводство»

13 Denza E. Diplomatic Law 2nd ed. Clarendon Press Oxford,1998

14 Сиберт Ф. С., Шрамм У., Питерсон Т. Четыре теории прессы. Пер. с англ. М., 1998, 285 с.

15 Lee L.T. Consular law and practice (Oxford, Monographs in international law) Oxford University Press 2nd. Ed. 1991, 776p

16 Jack C. Plano: Roy Olton "The international Relations Dictionary" Longman 1988, 447p.

17 Stein M.L. and S.F.Paterno The neüsüeriters handbook / An İntroduction to Journalism. Lowa State University Press Amess 1998,162 s.

problemin qoyuluşu ilə bağlı məsələlərə aydınlıq gətirilməsi üçün istifadə olunmuşdur. Milli jurnalistikanın nümayəndələrindən H.Vəliyev jurnalistikanın rolunu və əhəmiyyətini obyektiv qiymətləndirərək yazırdı ki, "mətbuat yarandığı gündən etibarən jurnalistlərlə hakimiyyət orqanları arasında münaqişə törəyir, müxbirlər gördüklərini, cəmiyyətdəki eybecərlikləri əks etdirmək istəyir, imperatorlar, krallar, çarlar, sultanlar... buna imkan verməmək üçün senzuranın gücündən istifadə edirlər"[18].

Mövzunun işlənilməsində Azərbaycanda müstəqillik illərinin ilk dövründən müasir günümüzün reallıqlarına qədər Azərbaycan diplomatiyasının xarici siyasət fəaliyyəti ilə bağlı araşdırmalar aparan tədqiqatçılardan R.Ə.Mehdiyevin[19], H.Vəliyevin[20], N.Yaqublu və A.Rüstəmlinin[21], S.Zeynalovun[22], P.Darabadinin[23], A.Aslanovun[24], İ.Şükürovun[25], A. Abasbəylinin[26], Ə.Həsənovun[27], Ş.Bağırovun[28] və s. əliflərin problemlə bağlı fikirlərinə istinadlar edilmiş, Azərbaycanın dövlətlərarası əlaqələrində mətbuatın yeri və rolu demokratiyanın inkişaf perspektivləri nöqteyi-nəzərindən ətraflı təhlil edilmiş, milli və beynəlxalq təcrübəyə istinadən müqayisə və sintez yolu ilə sistemli təhlillər aparılmışdır.

Azərbaycan mətbuatının materialları əsasında mətbuatın dövlətlərarası münasibətlərin təkmilləşdirilməsində rolunun açılması probleminin müasir jurnalistikanın tələbləri baxımından işıqlandırılması, toplanmış materialların səbəb-nəticə əlaqəli təhlili məqsədilə C.Ə.Məmmədli[29],

---

[18] Azərbaycan Avropa Şurasında "xüsusi dəvət olunmuş qonaq" statusu almışdır // Ayna qəzeti, 1996, 21-27 may

[19] Mehdiyev R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. B., Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı, 2001, 276 s.; Yenə onun. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti// Dirçəliş-XXI əsr, 2007-2008, № 118-119, s. 30-31; Yenə onun. Азербайджан: вызовы глобализации, Б., XXI-Yeni nəşrlər evi, 2004, 584 c.; Yenə onun. Десять лет, изменившие Азербайджан: 2003-2013. М., Изд-во ГРИФ и К, 2013, 248 с.

[20] Vəliyev H. Dünya informasiya agentlikləri. Dərs vəsaiti. B., BDU nəşriyyatı, 2003, 64 s.; Vəliyev H. Beynəlxalq jurnalist təşkilatları. B., Uni Print, 2005, 84 s.

[21] Yaqublu N., Rüstəmli A. Xarici ölkələrin jurnalistikası. B., Adiloğlu nəşr., 2007, 150 s.

[22] Zeynalov S. «Dağlıq Qarabağ problemi: Heydər Əliyevin siyasi kursu və beynəlxalq hüquq normaları». / Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu: Dirçəliş-XXI əsr. № 74-75, 2004, s.219-225.

[23] Дарабади П.Г. Геоистория Каспийского региона и геополитика современности. Б., «Элм», 2002; Yenə onun. Кавказ и Каспий в мировой истории и геополитике XXI века. М., изд. Весь Мир, 2010, 216 с.

[24] Aslanov A. Dövlət siyasətinin informasiya təminatı. B., Şərq-Qərb, 2013, 620 s.; Aslanov A. Heydər Əliyev və Azər Tac. B., Nurlan, 2005, 175 s.; Aslanov A. Müasir dünyanın informasiya şəbəkəsində Azər TAc-ın yeri: təşəkkül tarixi və inkişaf mərhələləri. Dərs vəsaiti. B., Azərnəşr, 2012, 224 s.

[25] Шукуров И. Дипломатия мира. Б., изд. Азербайджан, 1997, 392 с.

[26] Аббасбейли А.Н. Внешняя политика Российской Федерации. Б., Элм, 2005, 472 с.

[27] Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropra dövlətləri və ABŞ (1991-1996). B., Azərbaycan nəşriyyatı, 1998, 315 s.; Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B., Azərbaycan nəşriyyatı, 2005, 762 s.

[28] Bağırov Ş. Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun siyasi aspektləri.

[29] Məmmədli A. Avropa Azərbaycanı təkləyir // Hürriyyət qəzeti, 1999, 18-19 mart; Yenə onun. "525-ci qəzet" haqqında 525 söz// Üç nöqtə, 2001, 21 aprel; Yenə onun. Jurnalistikaya giriş. B., 2001, s. 261; Yenə onun. Jurnalistikanın müasir inkişaf meylləri. B.,Elm, 2006, 465 s.; Yenə onun. Jurnalistikanın

İ.Mazanlı[30] və A.Ə.Başirlinin[31] əsərlərindən, habelə BDU-da nəşr olunmuş elmi əsərlər toplusudan[32] istifadə olunmuşdur.

Tədqiqat prosesində dövlət və hakimiyyət rəsmi sənədlərindən, dövlət başçıları və xadimlərinin məruzə, çıxış və müsahibələrindən, xarici informasiya mənbələrindən toplanmış faktlardan, QHT-lərin informasiya bazasından, sorğu və məlumat kitablarından götürülmüş sənəd və materiallardan tənqidi şəkildə istifadə olunmaqla elmi dövriyyəyə yeni fakt və dəlillər gətirilmişdir.

Tədqiqatçılardan R. Ə.Mehdiyev qloballaşan dünyada Azərbaycanla bağlı problemlərə toxunur, dünya neft bazarında "yeni oyunçu" kimi respublikamızın xarici siyasət prioritetləri, habelə dünyanın fövqəldövlətlərinin regionda geosiyasi maraqları kimi məsələlərə aydınlıq gətirərək yazırdı: «Xəzər təkcə neft və qaz regionu deyil, həm də mühüm geostrateji qovşaqdır, elə bir qovşaq ki, dünya dövlətlərinin maraqları dairəsindədir. Qərb və Şərqin maraqları burada kəsişir»[33]. Müəllif informasiya kanallarından götürülmüş müxtəlif informasiyalardan istifadə etməklə ümumiləşdirmələr aparmış, konkret sahələrə diqqəti yönəltmişdir. Akademik R.Ə. Mehdiyevin Azərbaycan və eləcə də postsovet məkanında ciddi rezonans doğurmuş "Десять лет, изменившие Азербайджан: 2003-2013" adlı tədqiqat əsəri Moskvada, rus dilində çap olunmuşdur[34] və bu tədqiqat müstəqil Azərbaycanın müasir inkişaf səviyyəsini ifadə etməklə milli mətbuatımızın da dövlətlərarası münasibətlərdəki yeri barədə maraqlı tədqiqat rolunu oynamaqdadır. Bu əsər də tədqiqatımızın dərinləşməsinə öz dəstəyini göstərmişdir.

Müəllifin Azərbaycanın müstəqillik dövrünün taleyüklü problemlərinə həsr olunmuş başqa bir kitabında onun müxtəlif mətbuat orqanlarında işıq üzü görmüş məqalələri, müsahibə, çıxış və mühazirləri və s. toplanmışdır. Əsərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə bağlı

---

nəzəriyyəsi və təcrübəsi. Dərslik. B., Zərdabi LTD MMC, 2012, 616 s.

[30] Mazanlı İ. Söz azadlığı və informasiya təhlükəsizliyi: milli və beynəlxalq təminat. Terminlər və anlayışlar. B., Uni Print, 2005, 160 s.

[31] Bəşirli A.Ə. Azad mətbuatın çərçivəsində. The New-York Times Azərbaycandan. Nə? Nə zaman? Necə? Monoqrafiya-B., «Şərq-Qərb», 2007, 224 s.

[32] Azərbaycan jurnalistikasının tarixi təcrübəsi və müasirlik. Elmi əsərlər toplusu. B., ADU nəşryyatı, 1985, 144 s.

[33] Мехтиев Р. Азербайджан: вызовы глобализации, Б., XXI-Yeni nəşrlər evi, 2004, c. 309

[34] Мехтиев Р. Десять лет, изменивщие Азербайджан: 2003-2013. М., Изд-во ГРИФ и К, 2013, с. 248

Azərbaycan diplomatiyasının, xüsusilə ümummilli lider Heydər Əliyevin fəaliyyəti aşağıdakı kimi qiymətləndirilmişdi: «1993-cü ildən indiyə qədər prezident Heydər Əliyev tərəfindən 68 ölkənin prezidenti, dövlət başçısı ilə 485 görüş keçirmişdir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nihamlanması yolları haqqında ABŞ prezidenti və dövlət katibi ilə 18 dəfə, Fransa prezidenti ilə 16 dəfə, Rusiya prezidenti ilə 28 dəfə, Türkiyə rəhbərləri ilə 78 dəfə görüş keçirilmiş, danışıqlar aparılmışdır»[35]. Bu isə xüsusilə milli mətbuatın həmin prosesdə oynadığı rolu səciyyələndirmək üçün yetərlidir.

Aydındır ki, dövlətlərarası münasibətlər sistemində Ermənistanın təcavüzkar siyasəti də öz mənfi təsirini göstərir. Tədqiqatçılarımız bu probleme xüsusi əhəmiyyət verirlər. Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti, yaranması və gedişi milli tədqiqatlarda başlıca mövzulardan biridir. Milli siyasətşünaslıqda münaqişənin kökləri, inkişaf dinamikası, Dağlıq Qarabağ düyününün olayları, müxtəlif qüvvələrin problemə münasibəti jurnalist və tədqiqatçı səriştəliliy ilə araşdırılır.

Münaqişənin nizamlanması üçün dünya dövlətləri və beynəlxalq təşkilatların dəstəyini qazanmaq istiqamətində məqsədyönlü iş aparan Azərbaycan diplomatiyasının fəaliyyətində yaxından iştirak edən milli mətbuat eyni zamanda dövlətlərarası münasibətlərin təkmilləşdirilməsində və Azərbaycanda Qərb dəyərləri ilə səciyyələnən vətəndaş cəmiyyəti quruculuğunun həyata keçirilməsində mühüm rol oynayır. Bütün bunlar göstərir ki, problemin elmi-nəzəri baxımından araşdırılması elmi-siyasi əhəmiyyətə malikdir.

**Tədqiqatın məqsəd və vəzifələri** problemin aktuallığı ilə müəyyənləşmişdir. Dissertasiya işində qarşıya qoyulan əsas məqsəd müasir Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafında və təkmilləşdirilməsində mətbuatın yeri və rolunun öyrənilməsindən, vətəndaş cəmiyyəti quruculuğu zəminində mətbuat institutunun əsas xüsusiyyətlərinin tədqiq olunmasından, habelə milli və beynəlxalq təcrübə əsasında problemin siyasi-hüquqi aspektlərinin araşdırılmasından, problemi dövrün siyasi-ictimai çərçivəsində öyrənməkdən, onun digər siyasi problemlərlə qarşılıqlı əlaqəsini müəyyən etməkdən ibarətdir. Məqsədə çatmaq üçün aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsinə cəhd göstərilmişdir:

---

[35] Mehdiyev R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. B., Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı, 2001, s. 217

- problemin respublikada ilk dəfə olaraq jurnalistika ilə siyasətşünaslığın elmi-nəzəri və təcrübənin nəticələrindən birgə istifadə əsasında araşdırılması;

- Azərbaycanın müstəqilliyinin ilk günlərindən etibarən demokratik institut kimi formalaşmaqda olan milli mətbuatın dövlətlərarası əlaqələrin yaradılması və təkmilləşdirilməsində fəaliyyətinin elmi-nəzəri əsaslarının öyrənilməsi;

- Azərbaycan Respublikası qanunvericiliyində mətbuatın fəaliyyətinin genişləndirilməsi ilə bağlı müddəaların təhlil edilməsi;

- problemin respublikada və onun ətrafında baş verən müasir siyasi-ictimai proseslər konstektində nəzərdən keçirilməsi;

- Azərbaycanın dövlətlərarası əlaqələrinin genişlənməsində milli mətbuatın rolu və meydana gələn problemlərin aradan qaldırılmasına təsiri, habelə bu proseslərin nizamlanmasının siyasi-ictimai və siyasi-hüquqi aspektlərinin araşdırılması;

- tədqiq olunan dövrdə Azərbaycan mətbuatının inkişaf dinamikasının izlənməsi, onun fəaliyyətinin qanunvericilikdə öz əksini tapması və qanunvericilik bazasının inkişafı məsələlərini kompleks şəkildə tədqiq edilməsi, dövlətin bu sahədəki siyasi kursunun əsas istiqamətlərinin göstərilməsi;

- milli mətbuatın hadisə və prosesləri qiymətləndirməsi vəziyyətinin və səviyyəsinin tədqiq edilməsi;

- mətbuatın Ermənistanın Azərbaycana qarşı işağlçılıq siyasətinin konkret fakt və sənədlərə əsasən dünya ictimaiyyətinə çatdırılmasında iştirakı, vətənpərvərlik ruhunun təbliği, münaqişənin dinc yollarla nizama salınmasında rolunun öyrənilməsi.

**Disertasiya işinin obyekti və predmeti**. Dissertasiya işinin obyekti dövlətlərarası münasibətlərin təkmilləşdirilməsi və bu işdə mətbuatın rolu, obyekti isə dövlətlərarası münasibətlər sahəsində KİV-in fəaliyyətinin nəzəri-metodoloji əsasları, dövlətlərarası münasibətlərin təkmilləşdirilməsində milli mətbuatın yeri və rolu, Azərbaycanın ikitərəfli və çoxtərəfli əlaqələrinin genişləndirilməsi sahəsində Ümummilli lider Heydər Əliyev və Respublika Prezidenti Cənab İlham Əliyevin fəaliyyətinin  milli mətbuatda işıqlandırılması, Azərbaycanın dövlətlərarası əlaqələrinin təkmilləşdirilməsində və regional qurumlarla əməkdaşlığın inkişafında mətbuatın rolu kimi məsələlərdir.

**Araşdırmanın xronoloji hüdudları** Azərbaycanın dövlət müstəqilliyinin bərpasından (1990-cı illərin əvvəlləri) başlayaraq 2010-cu ilin sonlarınadək olan dövrü əhatə edir.

**Dissertasiya işinin elmi yeniliyi** mətbuatın dövlətlərarası münasibətlərin təkmilləşdirilməsi faktoru kimi yeri, rolu və əhəmiyyətinin araşdırılması ilə bağlıdır ki, tədqiqat prosesində qoyulmuş problem Azərbaycanın xarici siyasət fəaliyyətinin ana xəttini təşkil edən ikitərəfli və çoxtərəfli əlaqələr kompleksində, xarici və daxili siyasət fəaliyyətimizin taleyüklü məsələsi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında milli mətbuatın iştirakı da nəzərə alınmaqla öyrənilmişdir.

Tədqiqat mövzusu Azərbaycan jurnalistikası və siyasətşünaslığı üçün yenidir və burada Azərbaycanın dövlət müstəqilliyinin ilk illərindən müasir dövrədək yürüdülən dövlət siyasəti, bu sahədə qarşıya qoyulan vəzifələr, nəzərə çarpan problem və uğurlar ümumiləşdirilərək tədqiqata cəlb edilmişdir.

Tədqiqatın elmi yeniliyi problemin respublika siyasətşünaslıq elmində ilk dəfə müasirlik baxımından təhlili, eləcə də işin məqsədindən və qarşıya qoyulan vəzifələrdən irəli gəlir. Dövlətlərarası münasibətlərin təkmilləşdirilməsində mətbuatın rolu mövzusu yeni mərhələdə və dövlət siyasəti kontekstində kompleks şəkildə ilk dəfə araşdırılır. Burada:

- müstəqil Azərbaycan milli mətbuatının yaranması və özünütəsdiqi prosesində respublikanın ətrafında cərəyan edən hadisə və proseslər elmi-siyasi istiqamətdə tədqiq edilir;
- ölkəmizdə müasir demokratik dəyərələrlə səciyyələndirilən vətəndaş cəmiyyəti quruculuğu prosesində Azərbaycan mətbuatının yeri, rolu, inkişaf dinamikası araşdırılır;
- respublika mətbuatının digər dövlətlərin mətbuatı ilə əlaqələrinin formalaşmasının mahiyyət və məzmunu, əməkdaşlıq istiqamətləri və inkişaf perspektivləri təhlil edilir;
- milli və beynəlxalq təcrübəyə əsasən demokratik institut statusu qazanmış mətbuatın dövlətlərarası münasibətlərin təkmilləşdirilməsi prosesində fəaliyyətinin elmi-praktiki aspektləri araşdırma obyektinə çevrilir;
- dövlətl-mətbuat münasibətlərində qanunvericilik yolu ilə təsbit edilmiş normaların beynəlxalq təcrübəyə implementasiyası və bunun müasir Azərbaycan mətbuatının timsalında təsbiti;
- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin timsalında hərbi-siyasi münaqişələrin nizamlanması prosesində milli mətbuatın iştirakının dövlətlərarası və beynəlxalq təşkilatlarla əməkdaşlıq baxımından elmi-siyasi aspektdən xüsusi tədqiqat obyekti olması.

**Dissertasiya işinin metodoloji əsasları** kimi müasir beynəlxalq münasibətlər nəzəriyyəsinin, jurnalistikanın və digər siyasətşünaslıq elmlərinin araşdırma metodlarından istifadə olunmuşdur. Araşdırma prosesində Azərbaycan Respublikasının Konstitusiyası, tədqiq olunan mövzu ilə bağlı Qanunlar və mövcud qanunvericilikdə olan müddəalar, müstəqil Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyev və Respublika Prezidenti Cənab İlham Əliyevin imzaladığı sərəncam və fərmanlar, beynəlxalq hüquqi aktlarda öz əksini tapmış sənədlər və müddəalar, yerli və beynəlxalq elmi konfransların materialları, eləcə də problemlə bağlı mütəxəssislərin əsərlərindən mənbə kimi istifadə olunmuşdur. Tədqiqatın empirik bazasını təşkil edən göstərilənlərlə yanaşı, müəllifin uzun illər ərzində apardığı müşahidələr və praktik təcrübəsindən əldə edilən nəticələr də dissertasiya işində öz əksini tapmışdır.

Dissertasiyada tədqiqat metodları kimi tarixi yanaşma, sistemli analiz, müqayisəli politoloji təhlil, kontent və ivent analiz, kompleks dialektik və elmi analizin bir sıra ümumi metodlarından, habelə instutsional təhlil metodundan istifadə olunmuşdur.

**Dissertasiya işinin empirik (təcrübi) bazasını** Azərbaycan mətbuatında 1991-2010-cu illər arasında mövzu ilə bağlı dərc olunmuş müxtəlif janrlı materiallar təşkil edir. Onların sırasında ümummilli lider H.Əliyevin, Prezident Cənab İlham Əliyevin və digər dövlət rəsmilərinin çıxış və müsahibələri, apardıları çoxsaylı diplomatik danışıqlar, müxtəlif ölkələrə səfərlər zamanı imzamlanmış sazişlər, beynəlxalq zirvə görüşlərində qəbul edilmiş sənədlərin mətbuatda təhlil edilən materiallar mühüm əhəmiyyətə malikdir[36]. Bundan əlavə, dissertasiyada istifadə olunmuş XİN-in arxiv materialları və sənədlər KİV-in məlumatları ilə müqayisəli şəkildə təhlil edilmişdir.

**Müdafiəyə çıxarılan yeni elmi müddəalar**:

1. Yeni informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin ictimai-siyasi həyatına və məişətinə daxil olmasına baxmayaraq ənənəvi KİV, o cümlədən mətbuat hələ də cərəyan etməkdə olan hadisə və proseslərə, dövlətlər arasında ikitərəfli və çoxtərəfli münasibətlərin yaranmasına, inkişafına və təkmilləşməsinə fəal təsir göstərməkdə davam edir.

---

[36] Azərbaycan beynəlxalq aləmdə. VII cild. B., Nurlan, 2002, s. 177-178; Шукуров И. Дипломатия мира. Б., изд. Азербайджан, 1997, с. 336-337

2. Dövlətlərarası münasibətlərin təkmilləşdirilməsi faktoru kimi mətbuatın fəaliyyətinin professional səviyyədə tədqiqata cəlb edilməsi problemə kompleks yanaşma, yetkin nəzəri araşdırma tələb edir.

3.İkitərəfli münasibətlərin müqavilə-hüquq bazası ilə bağlı problemlərin, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanın dövlətlərarası əlaqələrinin qurulması və genişləndirilməsinin milli mətbuatda necə, hansı forma və metodlardan istifadə etməklə işıqlandırılmasının öyrənilməsi siyasət və mediaşünaslıq sahəsində bir çox problemlərin həllinə yol aça bilər.

4. Ümummilli lider Heydər Əliyevin və Prezident Cənab İlham Əliyevin diplomatik-siyasi manevrlərinə, "balans diplomatiyası"na, beynəlxalq əlaqələrinin dərinləşdirilməsi sahəsində onların məqsədyönlü və səmərəli fəaliyyətlərinə milli mətbuatın münasibətinin dərindən təhlili, Azərbaycanın dövlətlərarası əlaqələrinin təkmilləşdirilməsində və regional qurumlarla əməkdaşlığın inkişafında mətbuatın oynadığı mühüm rolun tədqiqi nəticəsində əldə olunan tövsiyələr dövlətçiliyimizin və jurnalistikamızın bundan sonrakı inkişafı üçün faydalı postulat kimi də önəmlidir.

5. Elmi cəhətdən əsaslandırılmış, praktik baxımdan təsirli ümummilli informasiya siyasətinin işlənib hazırlanması beynəlxalq aləmdə Azərbaycanın dövlət maraqlarının təmin olunması ilə birbaşa əlaqədar olan çox vacib vəzifələrdəndir. Bu vəzifə Azərbaycanın tarixi milli xüsusiyyətlərini və siyasi maraqlarını, eləcə də mövcud beynəlxalq təcrübəni nəzərə almaqla yerinə yetirilməlidir.

6. Azərbaycanın dünya inteqrasiya proseslərinə qatılmaqda olduğu müasir dövrdə mətbuat beynəlxalq aləmdə milli dövlətçiliyimiz və demokratik cəmiyyət quruculuğu üçün əhəmiyyətli olan təcrübənin mənimsənilməsi və praktiki baxımdan tətbiq olunması üçün geniş imkanlara malikdir və bu faktordan istifadə olunması öz aktuallığını zaman-zaman saxlayacaqdır.

**Dissertasiya işinin nəzəri və praktik əhəmiyyəti** tədqiq edilən problemin aktuallığından və elmi yeniliyindən qaynaqlanır. Mətbuatın vətəndaş cəmiyyətinin atributu kimi respublikamızda demokratik ənənələrin inkişafı və dövlət quruculuğunun təkmilləşdirilməsi və möhkəmləndirilməsində mühüm rol oynayır. Bu baxımdan dövlət-cəmiyyət münasibətlərinin tənzimlənməsində, cəmiyyətin inkişafı prosesində meydana gələn və nizamlanması vacib problemlərin vaxtında aşkarlanması və həllində, dövlətlərarası əlaqələrin genişlənməsində, demokratik proseslərə, siyasi şüura və siyasi mədəniyyətə təsirində mətbuatın rolu əvəzsizdir və bundan irəli gələn vəzifələrin tədqiqi nəzəri və praktik əhəmiyyət kəsb edir.

Tədqiqatın gedişində toplanmış materiallardan və əldə olunmuş nəticələrdən ictimai-siyasi ümumiləşdirmələrin aparılmasında, cəmiyyətin demokratikləşməsi proseslərinin həyata keçirilməsində, dövlətlərarası ikitərəfli və çoxtərəfli (beynəlxalq təşkilatlarla əlaqələr baxımından) əməkdaşlığın inkişafı və vətəndaş cəmiyyəti quruculuğunda elmi-nəzəri baxımdan istifadə edilə bilər.

Tədqiqat işindən və müəllifin bu sahədəki araşdırmalarından media mənsublarının və KİV-in nümayəndələrinin faydalanması ilə yanaşı, mətbuat işinin təşkilində, siyasi təşkilatlarla əməkdaşlığın qurulması və öyrənilməsində də istifadə oluna bilər. Əsər jurnalistika fakültələrinin tələbələri, beynəlxalq münasibətlər və əlaqələrlə bağlı fənlərini öyrənən mütəxəssislər üçün də faydalı vasitə sayıla bilər. Tədqiqatın nəticələrindən habelə ictimai-siyasi istiqamətli tədqiqatlarda, mətbuatın müasir dünya siyasətində rolu ilə bağlı mövzuların tədrisində, humanitar sahədə araşdırmalar aparan mütəxəssislərin elmi işlərində, eləcə də müvafiq kurslarda, mühazirə və seminar məşğələlərin aparılmasında istifadə edilə bilər.

**Tədqiqat nəticələrinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin Beynəlxalq jurnalistika kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları və elmi nəticələri BDU-nun aspirant və gənc tədqiqatçılarının elmi konfranslarında edilmiş məruzələrdə, habelə müəllifin mövzu ilə bağlı müxtəlif elmi-nəzəri jurnallarda dərc edilmiş məqalələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, üç fəsil (altı yarımfəsil), nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiq edilən mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tarixşünaslığı və mənbəşünaslıq məsələləri təhlil edilir, metodoloci məsələlərə aydınlıq gətirilir, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilir, işin elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın **"Mətbuatın dövlətlərarası münasibətlər sahəsində fəaliyyətinin nəzəri-metodoloji əsasları"** adlanan **I fəslinin birinci paraqrafında** demokratik cəmiyyət quruculuğu və media arasında münasibətlər elmi-nəzəri təhlil edilir. Hazırda beynəlxalq aləmdə demokratikləşmə proseslərinin getdiyi, hüquqi dövlətin əsaslarının formalaşmaqda olduğu bir dövrdə başlıca insan hüquqları və azadlıqlarının müdafiəsi həmişəkindən daha aktualdır. Təsadüfi deyil ki, demokratik

cəmiyyətin əsas elementlərindən sayılan söz və mətbuat azadlığı, informasiya hüququ və informasiya təhlükəsizliyi ilə bağlı milli və beynəlxalq hüquqi norma və prinsiplər təkmilləşdirilməkdə və geniş tətbiq olunmaqdadır.

Müasir informasiyalı cəmiyyətinin formalaşması ilk növbədə qlobal informasiya mühitinin yaradılması, informasiya və kommunikasiya texnologilarından kütləvi şəkildə istifadə, sosial və iqtisadi fəaliyyətin yeni formalarının yaradılması, informasiyanın əmtəəyə çevrilməsi, informasiya və bilik bazalarının meydana gəlməsi və inkişafı, təhsil sisteminin təkmilləşdirilməsi, beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin imkanlarının genişlənməsi hesabına peşə və ümumi mədəniyyət səviyyəsinin genişlənməsi deməkdir.

Məhz bunun nəticəsində mətbuat demokratik inkişafın vacib şərti kimi vətəndaşların və sosial institutların məlumat almaq, ondan istifadə etmək və yaymaq kimi hüquqlarını təmin edən mühitin yaradılmasında mühüm rol oynayır. Demokratik təsisatların yaradılması və idarəetmənin bərqərar olması fikrin azad ifadə olunmasını tələb edir ki, bu olmadan vətəndaşların siyasi və içtimai həyatda iştirakı üçün vacib olan informasiyanı əldə etmək mümkün deyil. İnformasiyanın daşıyıcısı və yayıcısı kimi, KİV-in azadlığı demokratik vətəndaş cəmiyyəti quruculuğunun başlıca şərtəlrindən biridir[37], XX yüzilliyin sonlarından etibarən respublikamızın bu prosesə qoşulması media hüququ sahəsində beynəlxalq təcrübədən istifadəni zəruri edir.

Fəslin "Mətbuat haqqında Azərbaycanda ilk normativ aktların yaranması və KIV-lə bağlı qanunvericiliyin təkmilləşdirilməsi" adlanan **ikinci paraqrafında** müstəqilliyin ilk illərindən etibarən Azərbaycanda KİV sahəsində qanunvericiliyin necə formalaşması məsələləri araşdırılır. Söz və mətbuat azadlığı uğrunda mübarizədə həmişə ön sıralarda olan Azərbaycan xalqı dünyanın bütün xalqları kimi bu ali məqsədin reallaşdırılması yönümündə fəaliyyət göstərmiş, bu amil Azərbaycan bədii və klassik ədəbiyyatının səhifələrində öz əksini tapmış, bütün XIX-XX əsrlər boyu ziyalılarımız həm öz əsərlərində, həm də fəaliyyətlərində azad mətbuat, azad söz uğrunda daim mübarizə aparmış, milli mətbuatımız, publisistikamız, teatrımız və məktəblərimiz məhz bu prosesdə formalaşmışdır. Sərt çar senzurasının mövcud olduğu müstəmləkə

---

[37] Mazanlı İ. Söz azadlığı və informasiya təhlükəsizliyi: milli və beynəlxalq təminat. Terminlər və anlayışlar. B., Uni Print, 2005, s. 5

şəraitində Azərbaycan mətbuatının fəaliyyət yolu, ilk mətbu orqanımız olan "Əkinçi" qəzetindən "Molla Nəsrəddin" jurnalına qədər milli məbuatımızın və jurnalistlərimizin üzləşdikləri çətinliklər və məhrumiyyətlərlə bağlı qan yaddaşımızda nə qədər desəniz faktlar və sənədlər mövcuddur.

Azərbaycanın milli istiqlal hərəkatının banilərindən biri və “Açıq söz” qəzetinin yaradıcısı M.Ə.Rəsulzadə də mətbuat azadlığını demokratik dəyərlərə yiyələnmək sahəsində ən ciddi vasitə hesab edirdi. Onun 1911-ci ildə yazdığı «Mətbuat azadlığı» məqaləsində deyilirdi: «O millət, o məmləkət xoşbəxt və azaddır ki, onların mətbuatı azad və xoşbəxt olsun»[38]. Müəllif daha sonra qeyd edirdi ki, cəmiyyətdə «mətbuatın rolu çox böyük və əhəmiyyətlidir. Mətbuat mühüm milli qüvvələrdən biridir. O, milli iqtidarda dördüncü yerdə durur. Yəni iqtidarın üç qüvvəsi: birinci – qanunvericilik, ikinci – icraedici, üçüncü – hüquq orqanları. Bundan sonra mətbuat gəlir»[39].

Azərbaycan jurnalistikası ilk dəfə azad sözün, informasiya azadlığında öz əksini tapmış demokratiyanın dadını 1918-1920-ci illərdə - Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 23 ayda hiss etmişdir. Belə ki, yeni yaradılmış Azərbaycan parlamenti azad mətbuatın ölkənin inkişafındakı əhəmiyyətini yaxşı başa düşdüyündən vaxt itirmədən 1919-cu il oktyabrın 30-da "Mətbuat nizamnaməsi" adlı hüquqi sənədi təsdiq etmişdir. Bu sənəd Azərbaycan jurnalistikası tarixində KİV-in hüquqi tənzimlənməsi istiqamətində qəbul olunmuş ilk yuridik normativ akt hesab edilir. Bu hüquqi sənəd hələ ötən əsrin əvvəllərində Azərbaycan mətbuatının dünyanın demokratik mətbuat ənənələrindən necə faydalandığını, onun hüquqi bazasının beynəlxalq təcrübə ilə olduqca sıx əlaqədə inkişaf etdiyini bariz şəkildə sübut edir.

XX əsrin 80-90-cı illərinin qovşağında Azərbaycan milli azadlıq hərəkatının təsiri özünü ilk növbədə milli mətbuatda göstərdi. Milli azadlıq hərəkatı illərində fəaliyyətə başlamış və bu hərəkatın tarixini işıqlandıran, sovet rejiminin nöqsanlarını tənqid etməyə cəsarət edən yeni müstəqil mətbuat orqanları fəaliyyətə başladı. Bu qəzetlərin Azərbaycanın müstəqillik qazanmasında heç də az rolu olmadı. Müstəqilliyin başlanğıc nöqtəsində bazar münasibətlərinin ilk işartısı olan özəl sektorun yaranması da ilk olaraq özünü mətbuat sahəsində nümayiş etdirdi. Beynəlxalq medianı özəl sektorunun modellərinin, təcrübəsinin əsasında əvvəlcə ibtidai şəkildə olsa belə, ilk özəl qəzetlər, ilk televiziya və radio kanalları yarandı və

---

[38] Rəsulzadə M.Ə. Əsərləri, II cild, B., Şirvannəşr, 2001, s. 70
[39] Yenə orada, s. 70

sürətlə dünya təcrübəsindən bəhrələnib inkişaf etməyə başladı. Yeni dövrdə nəşr olunan “Tərəqqi” qəzeti həmin illərdə yazırdı ki, "XX əsrin 80-ci illərin sonlarında son 70 illik dövr ərzində ilk dəfə olaraq milli hərəkatın təsiri ilə qeyri-hökumət ümummilli qəzetləri meydana gəldi və növbəti onillik dövr üçün ölkədə qəzet yağışı başlandı"[40].

Müasir dövrdə "KİV haqqında Qanun" media üçün çox vacib bir faktordur. Sayı gündən-günə artan media orqanlarının fəaliyyətini bu qanun olmadan tənzimləmək sadəcə mümkün deyil. Qanun jurnalistin fəaliyyəti üçün zəruri olan bütün hüquq və vəzifələri əks etdirir. Sənədin ilk maddəsi isə medianın fəaliyyəti üçün əsas olan informasiya azadlığına təminat verməklə başlayır. Həmin maddədə qeyd olunur ki, "Azərbaycan Respublikasında kütləvi informasiya azaddır. Kütləvi informasiya azadlığı vətəndaşların qanuni yolla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən təminat verilməsinə əsaslanır". Bu təminat isə Azərbaycan Respublikasının Konstitusiyasıdır.

KİV qanunvericiliyi sahəsində mötəbər hüquqi aktlardan biri də 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasıdır. Bu sənəd vətəndaşlar üçün hüquqlar və məsuliyyətlər məcmusu kimi önəmli keyfiyyətləri özündə daşımaqla bərabər, jurnalistin fəaliyyətini tənzimləyən digər qanunvericilik aktlarının da əsasıdır. Deməli demokratik dünya ölkələrinin təcrübələrində olduğu kimi Azərbaycanda da KİV-in fəaliyyətinin hüquqi tənzimlənməsi konstitusional təminata malikdir. Konstitusiyanın mətbuat üçün dayaq nöqtəsi ola biləcək 47, 50 və 51-ci maddələri "Əsas hüquq və azadlıqlar" bölməsinə daxil edilmişdir. Bu isə demokratik cəmiyyətin ən vacib atributu olan azad mətbuata verilən yüksək qiymətdən xəbər verir.

Dissertasiyanın **II fəsli “Müstəqilliyin ilk illərində Azərbaycan Respub-likasının dünya siyasət meydanına çıxması milli mətbuatın səhi-fələrində”** adlanır.

Fəslin **birinci paraqrafında** müasir dövrdə Azərbaycanın dövlət-lərarası əlaqələrinin qurulması prosesində milli mətbuaın iştirakı məsələləri araşdırılır.

Müasir dünya nizamı beynəlxalq münasibətlər sisteminin subyektləri olan dövlətlər arasında bərabərhüquqluluğu, qarşılıqlı fayda və mənafelərə

---

[40] Medianın inkişafının yeni mərhələsi // Tərəqqi qəzeti, 1992, 3 fevral

hörmət edilməsini nəzərdə tutan əməkdaşlığın inkişaf etdirilməsi üzərində qurulmuşdur. XX yüzilliyin 90-cı illərində dünyada baş vermiş qlobal ictimai-siyasi dəyişikliklər fonunda dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının dünya birliyi sıralarına qoşulması mürəkkəb və ziddiyyətli yol keçmiş, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında 33 bənddən ibarət Konstitusiya Aktı qəbul edildikdən sonra başlanan həmin yol bugünkü müstəqil dövlətçiliyimizin bərqərar olmasına gətirib çıxarmışdır. Milli azadlıq hərəkatının ilk günlərindən respublikamızda və regionda gedən ictimai-siyasi proseslərə qatılan milli mətbuat gənc respublikanın gələcək inkişaf yolları, dövlətçilik institutlarının yaradılması, daxili və xarici siyasətin təşkili, dünyanın Azərbaycanda cərəyan edən hadisələrə münasibəti, müstəqilliyə təhdidlər və s. kimi məsələləri ictimai firkin diqqətinə çatdırmaqla onu gündəmdə saxlamağa nail olurdu.

Müstəqillik ərəfəsində və onun ilk illərində Azərbaycanda baş verənlərin mərkəzində Milli Şura (90-cı illərin əvvəllərində parlament belə adlanırdı) dayanırdı. Müstəqilliyin atributları burada yaradılır, daxili və xarici siyasət prioritetləri burada müəyyənləşdirilirdi. Milli KİV – mətbuat və televiziya parlamentin iclaslarında gedən müzakirələri ictimaiyyətin diqqətinə çatdırır, vaxtı çatmış problemləri qaldırır, müstəqilliyin düşmənlərini ifşa edirdi[41]. Məhz belə bir vaxtda "Respublika", "Həyat" və "Azərbaycan" qəzetləri 1991-ci il oktyabrın 30-da parlamentin BMT-yə, dünya dövlətləri və beynəlxalq təşkilatlara Azərbaycan Respublikasının müstəqilliyinin tanınması haqqında müraciətini yayımladı. Bununla da dünya birliyinin Azərbaycanı tanımasına start verildi və 1992-ci ilin yanvarına qədər müstəqilliyimizi tanıyan dünya dövlətlərinin sayı 82-yə çatdı[42].

Azərbaycan Prezidenti Cənab İlham Əliyev regiondakı geosiyasi oyunçuların - böyük dövlətlərin və beynəlxalq təşkilatların region uğrunda mübarizəsini göstərilən amillərlə əlaqələndirərək bu mübarizənin gedişində Cənubi Qafqaz regionunda yaranmış qüvvələr nisbətinin tarazlığının əhəmiyyətinə diqqəti cəlb edərək göstərirdi ki, Rusiyanın regionda birtərəfli üstünlüyə nail olmaq üçün göstərdiyi bütün cəhdlərə baxmayaraq, Qərbin investisiya-maliyyə dəstəyi nəticəsində Azərbaycanın müstəqilliyi getdikcə möhkəmlənməkdə və dönərsiz xarakter almaqdadır[43]. Yaranmaqda

---

[41] Diplomatik əlaqələr genişlənir//Həyat qəzeti, 1992, 13 iyun
[42] Müstəqilliyin xronikası//Respublika qəzeti, 1992, 22 yanvar
[43] Алиев И.Г. Каспийская нефть Азербайджана. М., Известия, 2003, с. 15-16

olan yeni geosiyasi şəraitdə Azərbaycana Qərb dünyasının, ilk növbədə ABŞ və Avropa dövlətlərinin diqqətini bütün vasitələrlə cəlb etmək və transmilli dünya nəhənglərinin sərmayələrini Xəzərin karbohidrogen ehtiyatlarının istismarına yönəltmək lazım idı.

"Nyu York Tayms" qəzeti Heartlandın mühüm tətkib hissələrindən biri sayılan, "beş dəniz torpağına" və ox zonasına daxil edilən, tarix boyu sərhəd kimi çıxış edən, imperiyaların uğrunda mübarizə apardıqları "xalqlar muzeyi" və dinlərin qovşağı sayılan Qafqazın rolunu ilk növbədə onun enerji ehtiyatları və geosiyasi mövqeyi ilə bağlayırdı[44] ki, bu amillər Azərbaycan respublikasının dünya birliyinin sıralarına qoşulmasında mühüm rol oynayırdı.

Fəslin **ikinci paraqrafında** milli mətbuatın materialları əsasında Azərbaycan Respublikasının xarici siyasət prioritetləri araşdırılır və respublikamızın xarici siyasət istiqamətlərinin səciyyəsi verilir.

XX əsrin sonlarında dünyada baş verən ümumplanet miqyaslı qlobal rroseslər, "soyuq müharibə"nin başa çatması, vaxtilə dünya sosializm sisteminə daxil olan ölkələrin müstəqil subyektlər kimi dünya birliyinə inteqrasiyası beynəlxalq aləmdə siyasi gərginliyin azalması, qlobal qarşıdurmanın aradan qalxması ilə səciyyələnməklə yeni geosiyasi vəziyyəti şərtləndirmiş oldu. Postsovet məkanında meydana çıxan yeni müstəqil dövlətlərin beynəlxalq münasibətlər sisteminə qatılaraq öz suveren maraqlarını ifadə edən xarici siyasət kursunu həyata keçirməyə başlaması dünyanın geosiyasi mozaikasını dəyişdi.

Sovet dövlətinin varlığının son illərində ölkədə gedən demökratikləşmə proseslərində və milli-azadlıq hərəkatının genişlənməsində kütləvi informasiya vasitələri mühüm rol oynayırdı. Müstəqilliyin yaşıdı olan «Azərbaycan», «Aydınlıq», «Azadlıq», «Meydan», «Həyat», «Vətən səsi», «Tərəqqi», «Dalğa», «Səhər», «Millət», «Hüriyyət» və s. kimi mətbuat orqanlarında milli oyanış, tarixi irsə yeni münasibət, müstəqil dövlətçilik və yeni inkişaf meylləri təbliğ olunur, Azərbaycanın dünya ölkələri ilə əlaqələrinin qurulmasının vacibliyi ön plana çəkilirdi. Sovet məkanında gedən dezinteqrasiya prosesləri, İttifaqın tədricən dağılması, xalq cəbhəsi adı altında bir sıra siyası qurumların formalaşması, nəhayət, respublikaların İttifaqdan ayrılması bir növ zəncirvari prosesə çevrildi ki,

[44] Bəşirli A.Ə. Azad mətbuatın çərçivəsində. The New-York Times Azərbaycandan. Nə? Nə zaman? Necə? Monoqrafiya-B., «Şərq-Qərb», 2007, s. 45

nəticədə Azərbaycan Respublikası da 1991-ci il oktyabnn 18-də öz dövlət müstəqilliyini bəyan edərək müstəqil inkişaf yolu götürdü.

1991-1992-ci illərdə müstəqilliyin tanınması prosesinin gedişində milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi, bu sahədə beynəlxalq təcrübənin mənimsənilməsi yolu ilə dünya birliyinin sıralarına inteqrasiya ən mühüm məsələlər kimi ön plana keçdi. Qısa müddət ərzində dünyanın onlarla dövləti tərəfindən rəsmi surətdə tanınmış Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi ki, bununla da Azərbaycanın dövlət müstəqilliyinin dönərsizliyi dünya ictimai fikri tərəfindən təsdiqləndi[45].

Müstəqilliyin ilk illərində KİV-də gedən materialların təhlili göstərir ki, başlıca diqqət əsasən dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın müstəqilliyinin tanınmasına yönəlmişdi. Bu baxımdan Azərbaycanın 1991-1992-ci ilin əvvəllərindən İKT, ATƏT və BMT-nin sıralarına qəbul olunması, İngiltərə, Fransa, ABŞ, Çin və s. böyük dövlətlər tərəfindən tanınması yeni yaranmış müstəqil mətbuat tərəfindən baş xəbər kimi təqdim olunurdu. Müstəqilliyin ilk illərində Azərbaycan Respublikasının hansı istiqamət götürəcəyi, qərbyönümlü, yoxsa şərqyönümlü siyasət yeridəcəyi, demokratik inkişafın hansı yolu ilə gedəcəyi milli və xarici mətbuatın xüsusi diqqət verdiyi məsələlərin sırasında idi[46].

Dünyanın mühüm geostrateji məkanlarından birində yerləşən Azərbaycan malik olduğu mövqedən həm özünün, həm də tərəfdaşlannın bəhrələnməsi, milli mənafelərinin və təhlükəsizliyinin təmin olunması istiqamətində zəruri tədbirlər həyata keçirir ki, bu baxımdan ikitərəfli və çoxtərəfli əlaqələrin əhəmiyyəti böyükdür. Müxtəlif dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Cənubi Qafqaz regionuna, xüsusilə Azərbaycana səfərləri çoxsaylı mətbuat konfransları və brifinqlərin mövzusuna çevrilməklə qalmır, bu prosesdə Azərbaycan dünyanı tanıyır və tədricən tanınırdı. Azərbaycan Respublikasının 90-cı illərin birinci yarısından başlayaraq Aİ, AŞ, QİƏT və NATO-nun "Sülh naminə tərəfdaş-

[45] Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. B., Hərbi nəşriyyat, 1998, s. 26; Самедов А. Азербайджан в современной системе международных отношений. (1993-2003). В., Elm, 2004, с. 9

[46] Müstəqilliyin xronikası// Respublika qəzeti, 1992, 21 fevral; Дарабади П.Г. Геоистория Каспийского региона и геополитика современности. Б., «Элм», 2002, s.22

lıq" proqramı çərçivəsində fəaliyyəti dünyanın qabaqcıl ölkələri ilə onun əlaqələrinin inkişafına mühüm zəmin yaratmışdı.

Disertasiyanın **III fəslində "Azərbaycanın dövlətlərarası əlaqələrinin təkmilləşdirilməsi və regional qurumlarla əməkdaşlığın inkişafı sahəsində mətbuatın fəaliyyəti"** araşdırılır.

**Birinci paraqrafda** Azərbaycanın Respublikasının dövlətlərarası əlaqələri milli mətbuatın materialları əsasında təhlil edilir. Müasir dövrdə dövlətlərarası münasibətlərin qurulması, inkişafı və təkmilləşdirilməsində kütləvi informasiya vasitələrinin, onun kontent formalarının, informasiya agentliklərinin, internetin və s. rolu və əhəmiyyəti böyükdür. Böyük-kiçikliyindən asılı olmayaraq dünya birliyinin üzvü olan hər hansı dövlətin daxili və xarici siyasətinin başlıca istiqamətləri və qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi yollarının müəyyənləşməsi və reallaşdırılması ölkənin daxili və xarici durumu haqqında toplanmış konkret informasiya üzərində qurulur. Bu məqsədlə uzunmüddətli strateji və taktiki fəaliyyət proqramı hazırlanır, prioritetlər və vəzifələr müəyyənləşdirilir, informasiya hazırlığı aparılır və cəmiyyət məlumatlandırılır. Azərbaycan Prezidenti Cənab İlham Əliyev bu mənada informasiyanın rolu və əhəmiyyətindən bəhs edərək qeyd edir ki, "ölkələr və xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsində informasiya agentliklərinin, kütləvi informasiya vasitələrinin fəaliyyətindən çox şey asılıdır. Həqiqi məlumatın vaxtında verilməsi operativ qərarların qəbulunda, proseslərin düzgün şərh edilməsində, ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələrin qurulmasında mühüm rol oynayır..."[47].

XX əsrin 90-cı illəri ərəfəsində keçmiş sovet məkanında başlayan milli azadlıq hərəkatları digər müttəfiq respublikalarla yanaşı Azərbaycanın da dövlət müstəqilliyinin elan olunmasına gətirib çıxardı. "Səhər" qəzeti 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Soveti II sessiyasının "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul etdiyini xəbər verdi və onun mətnini yayımladı. Aktın 16-cı maddəsi Azərbaycan Respublikasının beynəlxalq normalara uyğun fəaliyyətinə həsr olunmuşdu. Həmin bənddə deyilirdi: hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan

---

[47] Prezident İlham Əliyev AzərTAc-ın 90 illik yubiley mərasimində və MDB Ölkələri Milli İnformasiya Agentlikləri Rəhbərləri Şurasının iclasında iştirak edən nümayəndə heyətlərinin başçılarını qəbul etmişdir// Azərbaycan qəzeti, 2010, 2 mart

Respublikası başqa dövlətlərlə münasibətlərini aşağıdakı prinsiplər əsasında qurur: dövlətlərin suveren bərabərliyi, zor işlətməmək və zor işlətməklə hədələməmək, dövlət sərhədlərinin toxunulmazlığı, mübahisələri dinc yolla nizama salmaq, başqa dövlətlərin daxili işlərinə qarışmamaq, insanın hüquqlarına və əsas azadlıqlarına hörmət etmək, xalqların bərabərliyi və onların öz müqəddəratını təyin etmək hüququ, dövlətlərin əməkdaşlığı, beynəlxalq hüquqi öhdəlikləri vicdanla yerinə yetirmək”[48].

Azərbaycan dövlət müstəqilliyini elan etdiyi ilk günlərdən dünya birliyinin bərabər hüquqlu üzvləri sırasında yer almaq və beynəlxalq münasibətlərin subyektinə çevrilmək arzusunu birmənalı şəkildə bəyan etmişdi. Müstəqil Azərbaycan Respublikasının dünya dövlətləri tərəfindən ardıcıl şəkildə tanınması və diplomatik münasibətlərin yaranması haqqında 90-cı illərin əvvəllərində fəaliyyət göstərən milli mətbuat növlərinin hamısı informasiya yayırdılar. Belə ki, “Səhər” qəzeti Azərbaycan Respublikasının tanınması barədə aşağıdakı məlumatı yaymışdı: “Xarici işlər Nazirliyinin rəsmi məlumatına görə 1992-ci il yanvarın əvvəllərinədək Türkiyə, Rumıniya, Pakistan, Monqolustan, Litva, Əfqanıstan, İsveçrə, Hindistan, Kanada, İran, Liviya, Kuba, Avstraliya, KXDR, Əlcəzair, Mozambik, Koreya Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, Misir, Braziliya, ÇXR, Səudiyyə Ərəbistanı, Mərakeş, Belçika, AFR, Danimarka, Böyük Britaniya, Yunanıstan, İtaliya, İraq, Sinqapur, Efiopiya, Panama, Hollandiya, Banqladeş, Qazaxıstan, Norveç, Gürcüstan, Tunis, İordaniya, Tailand, Yaponiya, Peru, Yəmən, Oman, Laos, Malayziya, Sudan, Meksika və Fələstin Azadlıq Təşkilatı Azərbaycanın istiqlaliyyətini rəsmən tanımışlar... Yanvarın 8-də isə ABŞ Prezidenti Corc Buş Azərbaycan Prezidentinə məktub göndərərək ABŞ hökumətinin Azərbaycanı müstəqil dövlət kimi tanıdığını bildirmişdi”[49].

Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması prosesində Azərbaycan həqiqətlərinin dünyaya yayılması yönümündə müxtəlif informasiya kanalları ilə məlumatlar yayımlanırdı ki, bunların içərisində başlıca yeri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması mühüm yer tuturdu. Əslində Azərbaycan məhz bu yolla tədricən dünya informasiya məkanına daxil olur və haqq səsini ucaldırdı. 1992-ci il yanvarın sonları üçün Dağlıq Qarabağ probleminin regional təhlükəsizliyə yaratdığı təhdidləri nəzərə alan ATƏM-

---

48 Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı. B., Azərnəşr, 1991, s. 6

49 Qətiyyətin təntənəsi / sənədli xronika. Müəllif-tərtibçi: Ş.Yaqubov. B., Səhər, 1995, s. 244-245, 247

in Nazirlər Şurası Cənubi Qafqaz regionuna xüsusi missiya göndərmək qərarına gəlmişdi. Azərinformun yaydığı xəbərdə deyilirdi ki, "SİTA xəbər vermişdir ki, Helsinki prosesinin iştirakçısı olan ölkələrin xarici işlər nazirləri şurasının yanvarın 31-də Praqada başa çatmış sessiyası (1992-ci il nəzərdə tutulur-müəl.) Dağlıq Qarabağa Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin nümayəndəliyini göndərməyi qərara almışdır. Bu təkliflə Böyük Britaniyanın nümayəndə heyəti çıxış etmişdir. Nümayəndəlik yaxın həftə ərzində erməni-azərbaycanlı münaqişəsi rayonuna getməli, toplanmış məlumat əsasında hesabat tərtib etməlidir". Qəzetlər ATƏM nümayəndəliyinin tərkibi, fəaliyyətinin sürətləndirilməsi ilə bağlı məlumatları da yayırdılar.

Dövlət müstəqilliyini elan etdiyi ilk dövrlərdən etibarən Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində üç başlıca istiqamət özünü açıq şəkildə göstərməyə başlamışdı ki, azərbaycanli müəlliflərdən H.Hüseynovaya görə, bu istiqamətlər Türkiyə və Avropa yönümü, ABŞ yönümü və Rusiya yönümündən ibarət idi[50]. Təsadüfi deyildi ki, 1992-ci il yanvarın sonların üçün Respublikamızın dövlət müstəqilliyi Avropanın demək olar ki, bütün dövlətləri tərəfindən tanınmışdı. Dövrün kütləvi informasiya vasitələri Azərbaycanda fəaliyyətə başlayan xarici ölkələrin və xaricdə fəaliyyətə başlaması nəzərdə tutulan Azərbaycan nümayəndəliklərinin yaradılması haqqında sistemli şəkildə xəbər informasiyaları yayırdılar.

Fəslin **ikinci paraqrafı** Azərbaycanın Avropa qurumları ilə əməkdaşlığının genişləndirilməsində milli mətbuatın rolu ilə bağlı məsələlərə həsr olunmuşdur. Azərbaycan Respublikası Dövlət müstəqilliyini bərpa etdikdən sonra müasir dünya siyasətinə qatılmaq üçün ikitərəfli və çoxtərəfli əlaqələrin qurulması və genişləndirilməsi xəttini götürdü ki, bu ona öz haqq səsinin beynəlxalq təşkilatların ali tribunalardan ucaltmağa və Qərb demokratik dəyərləri nümunəsində sivil dövlət quruculuğu siyasətini həyata keçirməyə imkan verdi. Bu prosesdə milli mətbuat mühüm rol oynamışdı. Bir tərəfdan yenicə əldə etdiyi müstəqilliyin qorunması, digər tərəfdən Ermənistanın əsassız ərazi iddiaları zəminində təcavüzə məruz qalması və bunu dünyaya qəbul etdirmək istiqamətində başladığı mübarizə nəticə etibarilə ölkəmizin beynəlxalq təşkilatlarda – İKT (sonralar İƏT), ATƏT, BMT və Avropa Şurasında təmsilçiliyi ilə nəticələndi. Yüzilliklər boyu tez-tez baş verən qanlı müharibələr meydanı olan Avropa azad

---

[50] Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. B., Hərbi nəşriyyat, 1998, s. 52

vətəndaş cəmiyyətinin, beynəlxalq aləmdə sülhün, sabitliyin, təhlükəsizliyin keşikçisi, demokratik cəmiyyət ideyasının carçısı kimi çıxış edir. Avropada davamlı sülhü təmin etmək məqsədilə yaradılan birliklərin içərisində Avropa İttifaqı, Avropa Şurası, ATƏT, NATO kimi təşkilatlar müasir dövrdə dünyanın etiraf etdiyi təşkilatlardandır.

Hələ 1991-ci ilin sonlarından etibarən Azərbaycanla humanitar sahədə əməkdaşlıq edən belə təşkilatlardan biri də Avropa İttifaqıdır. Məhz, həmin dövrdən etibarən yaranmaqda olan milli, müstəqil Azərbaycan mətbuatı bu məsələlərə geniş yer ayırmağa başlamış, həmin dövrün mətbuatında qeyd edilən beynəlxalq təşkilatların adlarına mütəmadi şəkildə rast gəlinməyə başlamışdı. İstiqlaliyyət uğrunda mübarizənin gedişində məlumatsız auditoriyanı məlumatlandırmaq məqsədi güdən milli mətbuat, eyni zamanda, baş verənlərdən çıxış yolunu arayır, çox zaman da həmin təşkilatlara ümid və nicat ünvanı kimi baxır, bu prosesdə həm ictimai fikri formalaşdırır, həm də özü formalaşır, Azərbaycanı Ermənistanın ölkəmizin ətrafında yaratdığı informasiya blokadasından qurtarır və sürətli inkişaf yoluna çıxırdı.

Dövlət müstəqilliyinin ilk günlərindən Azərbaycan milli mətbuatı beynəlxalq dövlət və qeyri-dövlər təşkilatları içərisində Avropa İttifaqı ilə bağlı mövzulara da geniş yer verməyə başlamışdı. Doğrudur, respublikamıza Avropa İttifaqı və Avropa Şurası tərəfindən edilən humanitar yardımlarla bağlı milli mətbuatda gedən yazıları istisna etsək, Avropa İttifaqı ilə münasibətlərə əsasən 90-cı illərin ortalarından etibarən daha çox rast gəlinir.

Avropa İttifaqı ilə münasibətlərə daha çox yer ayıran və mövzunu gündəmdə saxlayan milli mətbuatdan "Azərbaycan", "Respublika", "Xalq qəzeti","Ayna", "Ekspress", "525-ci qəzet", "Yeni Müsavat", "Şərq", "Yeni Azərbaycan" və s. qəzetlər Qərb demokratiyası dəyərlərinin təhlilinə geniş yer verir, Azərbaycan-Aİ əməkdaşlığının inkişaf yollarını, respublikamızda həyata keçirilməkdə olan dövlət quruculuğu siyasətində Avropa təcrübəsinin əhəmiyyətini göstərir, habelə beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində konstruktiv mövqe tutmağa çağrılırdı.

Azərbaycanın Avropa Şurasına «xüsusi qonaq» statusu ilə 1996-cı ilin iyununda qəbul olunması, 2001-ci ilin yanvarında isə onun sıralarında öz yerini tutması Heydər Əliyev diplomatiyasının böyük uğuru idi. Lakin respublikada nəşr olunan qəzetlər cərəyan etməkdə olan hadisə və proseslərə eyni mövqelərdən yanaşsalar da, onun təhlilinə fərqli münasibət bəsləyirdilər. Belə ki, «Xalq qəzeti» və «Yeni Azərbaycan» qəzetləri istisna olmaqla bütün digər qəzetlər ölkə Prezidentinin və Azərbaycan rəsmilərinin Avropa dövlətlərinə səfərlərinə, aparılmış danışıqlara, imzalanmış sənədlərə

və Azərbaycana Avropa qurumlarının nümayəndələrinin səfərlərinin işıqlandırılmasına kiçik həcmli məlumat və xəbərlərin verilməsi şəklində yanaşır, hadısələrin perspektivlərinə dair proqnozlar obyektiv xarakter daşıyırdı.

Dissertasiyanın "Nəticə" hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilmiş, aparılan araşdırmalara yekun vurulmuş, əldə olunmuş nəticələr və gələcək perspektivlər müəyyənləşmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap olunmuşdur:**


1. KİV dövlətlərarası münasibətlərin təkmilləşdirilməsi amili kimi// Dil və Ədəbiyyat, Bakı 2007, №5(59), s. 206-208

2. Azərbaycan Respublikasının dövlətlərarası əlaqələrinin qurulması və genişləndirilməsində milli mətbuatın rolu. Beynəlxalq hüquq və inteqrasiya problemləri// Bakı, 2011№2(26), s.210-217

3. Azərbaycanın Avropa ittifaqı ilə əməkdaşlığı milli mətbuatın səhifələrində. Beynəlxalq hüquq və inteqrasiya problemləri// Bakı, 2012,№4(32), s.123-128

4. Avropa Şurasının Azərbaycanla bağlı fəaliyyətinin milli mətbuatda işıqlandırılması. Beynəlxalq hüquq və inteqrasiya problemləri// Bakı, 2013,№2(34), s.413-422

5. Müasir dövlətlərarası münasibətlərin inkişaf tendensiyaları milli mətbuatda. Qloballaşma dövründə insan hüquqları və milli hüquq sistemləri/ 10 dekabr Beynəlxalqinsan hüquqları gününə həsr edilmiş Beynəlxalq-elmi praktik konfransın (13-14 dekabr) materialları, Bakı, 2013, I cild, s 287-289

6.Освещение межгосударственных связей Азербайджанской Республики в националной прессе//Гилея, Киев, 2013, 71(№4), с 910-917

7. Milli mətbuatda Azərbaycan Respublikasının xarici siyasət prioritetləri haqqında. Bakı Universitetinin xəbərləri// Bakı, 2013, №2, s. 203-210

8. Путь Азербайджана от восстановления независмости до членства в совете Европы в отражении националной печати// Law and Politology, Молдова, 2013, №24, с 31-37

**Резюме**

Диссертационная работа по теме "Печать как фактор усовершенствования межгосударственных отношений (на материале современной печати Азербайджана)", представленная Зейналовой Айтекин Али гызы на соискание ученой степени доктора философии по политическим наукам по специальностям 5720.01- "Журналистика" и 5901.01- "Международные отношения". Диссертация посвящена расследованию сути и содержания печати, как фактора усовершенствования межгосударственных отношений, на основе материалов современной национальной печати Азербайджана. Диссертация состоит из введения, трех глав (шести параграфов), заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность исследуемой темы, анализируются уровень изучения проблемы, вопросы историографии и источниковедения, выясняются методологические вопросы, определяются цели и задачи исследования, указываются научная новизна и практическая значимость диссертации.

В первой главе «Теоретико-методологические основы деятельности печати в области межгосударственных отношений» исследуются отношения между строительством демократического общества и прессой, а также вопросы формирования законодательства в области СМИ, начиная с первых годов независимости.

Во второй главе «Выход Азербайджанской Республики на арену мировой политики на страницах национальной печати» исследуются внешнеполитические приоритеты Азербайджана, характеризуется политическая направленность нашей республики, а также анализируется место печати в процессе зарождения межгосударственных отношений Азербайджана.

Третья глава – «Усовершенствование межгосударственных отношений Азербайджана и деятельность печати в области развития сотрудничества с региональными структурами». В данной главе на основе материалов национальной печати, анализируются межгосударственные отношения Азербайджана, исследуется роль национальной печати в расширении сотрудничества страны с европейскими структурами.

В «Заключении» обобщаются основные положения научного исследования, определяются перспективы развития анализируемых проблем, делаются выводы по проделанной работе.

**Summary**

This dissertation named “Press as a factor of development of relationships between Governments (Based on the articles published on modern Azerbaijanian press)” (profession: 5720.01 “Journalism” and 5901.01 “International relationship”) is written by Zeynalova Aytakin Ali qizi for her PhD degree and dedicated to the gist and content of press as a factor of development of relationships between governmentsbased on the articles published on Azerbaijanian national press. The dissertation consists of introduction, three chapters (six sub-chapters), conclusion and list of reference materials.

In introduction the urgency of the topic, sources and origin problems are being substantiated. Furthermore the writer talks about methodological problem, the aim and mission of the research. And also dissertant mention the scientific innovation and practical importance of this research.

The first chapter of dissertation is named “Theoretical and methodological grounds of press as a part of the international relationships” and it is about the relationship between the creation of democratic society in early years of independence and media, and the formation of Media Legislation.

The second chapter of dissertation is named “First steps of Azerbaijan to the global political arena after gaining independence as described in national media”. This chapter is based on researches about Azerbaijan’s priorities on foreign policy and scientific and theoretical importance of national media as a part of creating international relationships

The third chapter of dissertation is about “The activity of media as a part of improving Azerbaijan’s relationships between governments and regional organizations”. In this chapter writer analyze the international relationships and cooperation between European organizations and Azerbaijan based on national media.

The “Conclusion” summarizes the general thesis of the dissertation. And also indicates the outcome and future prospects of research.